# «Gömrük orqanlarında xidmət haqqında» Əsasnaməyə dəyişikliklər edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli, 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında» Əsasnaməyə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 12; 2001-ci il, № 12, maddə 731, 736, 2004-cü il, № 2, maddə 57; Azərbaycan Respublikasının 2005-ci il, 4 mart tarixli, № 851-IIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 41-ci maddə aşağıdakı redaksiyada verilsin:

*«Gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələr üzrə maaşları Azərbaycan Respublikasının daxili işlər orqanları əməkdaşlarının xüsusi rütbələrə görə müvafiq maaşlarına bərabər müəyyən edilir.».*

2. 99-cu maddə aşağıdakı redaksiyada verilsin:

*«Gömrük orqanlarının vəzifəli şəxslərinin vəzifə maaşlarına bu orqanlarda xidmət illərinə görə əlavələr Azərbaycan Respublikasının daxili işlər orqanları əməkdaşlarının fasiləsiz xidmət illərinə görə verilən haqqın məbləğlərinə və hesablanması qaydasına uyğun olaraq ödənilir.».*

II. Bu qanun 2006-cı il yanvarın 1-dən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 28 iyun 2005-ci il***

***№ 969-IIQD***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (28 iyul 2005-ci il, № 172) («VES Consultancy» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 iyul 2005-ci il, № 7, maddə 590) («VES Consultancy» LLC).***

*© VneshExpertService LLC*